| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | LIT 308 Dünya ədəbiyyatı-2<br>Orta əsrlər Avropa ədəbiyyatı, 6 AKTS | |
| | Departament | Dillər və ədəbiyyatlar | |
| | Proqram (bakalavr, magistr) | Bakalavr | |
| | Tədris semestri | 2024/2025-ci tədris ilinin payız semestri | |
| | Fənni tədris edən müəllim | Fil.ü.f.d. Qardaşxan Əzizxanlı | |
| | E-mail: | gardashkhan.asiskhanli@khazar.org | |
| | Telefon: | Mob.: 050 724 36 42 | |
| | Mühazirə otağı/Cədvəl | Nərimanov korpusu | |
| | Məsləhət saatı | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | Dünya ədəbiyyatı-1 | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Ə.Xəlilov, "Dünya ədəbiyyatı" II cild, Ali məktəblər üçün dərslik, (İntibah dövrü, XVII-XVIII əsr dünya ədəbiyyatı), Bakı, "Bilik", 2013, 536 s.<br>2.Ə.Xəlilov "Dünya əd" I cild, Bakı, "Araz" n., 2011, 450 s.<br>**Əlavə dərsliklər:**<br>1.T.Novruzuov, Dünya ədəbiyyatı tarixi, III hissə, Orta əsrlər Avropa ədəbiyyatı. I kitab, Bakı, 2010.<br>2. T.Novruzov, XVII əsr Qərb ədəbiyyatı, Bakı, 1994.<br>3. A.Y.İshaqlı, XVII əsr Qərbi Avropa ədəbiyyatı, Bakı, 2012.<br>4. İ.Şıxlı, XVIII əsr xarici ədəbiyyat tarixi, 1970.<br>**Mənbələr:**<br>1.A.Dante, "İlahi komediya",B., 1973, 1988, 2004<br>2.C.Bokkaçio, "Dekameron", B., 1966<br>3.M.Servantes, "Don Kixot", B., 1985<br>4.N.Bualo, "Poeziya sənəti", B., 1969<br>5.R.Erazm, "Səfehliyin tərifi", (tərc. N.Hüseynli), B., Alatoran, 2010<br>6.V.Şekspir, "Seçilmiş əsərləri",B., Azərnəşr, 1962<br>7.Y.V.Höte, "Qərb-Şərq divanı", B., "Yazıçı", 2000<br>8. F.Rable. Qarqantua və Pantaqruel (tərc.: Ə.Cavad, B., Öndər, 2005.<br>9.Fransız ədəb. antol. (J.B.Molyer "Skapenin kələyi"), B., 2013, Şərq-Qərb və b. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Qrup müzakirəsi | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz(%)** |
| | Aralıq imtahanı | noyabr 2024 | 30 |
| | Davamiyyət | dekabr 2024 | 5 |
| | Fəallıq | dekabr 2024 | 5 |
| | Ev tapşırığı / qrup müzakirəsi | Sentyabr-dekabr, 2024 | 5 |
| | Prezentasiya / qrup müzakirəsi | Oktyabr-dekabr, 2024 | 5 |
| | Quiz | dekabr, 2024 | 10 |
| | Final imtahanı | Yanvar, 2025 | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Dünya ədəbiyyatı -2" ("Orta əsrlər Avropa ədəbiyyatı") Azərbaycan Respublikasının ali ədəbiyyat təhsili sistemində tədris olunan zəruri fənlərdəndir. Fənnin tədrisini zəruri edən amillər, həm də həmin dövrdəki ədəbi tarixi prosesin öyrənilməsinə yeni baxış, ədəbi tarixi inkişafın qanunauyğunluqlarının müasir metodika ilə öyrənilməsidir. "Orta əsrlər Avropa ədəbiyyatı", xüsusilə renessans dövrü ədəbiyyatı | | |

| | |
|---|---|
| | müasir ədəbiyyatşünaslıq üçün yenə də aktual qalmaqdadır. Bu da ilk növbədə, Orta əsrlər Avropa orta ədəbiyyatının özəlliyi, dünya ədəbiyyatına göstərmiş olduğu böyük təsirlə bağlıdır. Bu fənn tələbələrin bədii-estetik zövqünü formlaşdırmala yanaşı, onları dünya mədəniyyəti xəzinəsinə layiqli töhfəsini vermiş dahi söz sənətkarlarının yaradıcılığı ilə yaxından tanış edir. Fənnin tədrisi zamanı Avropa ədəbiyyatı nümunələri ilə Azərbaycan ədəbiyyatı arasında müvafiq paralellər aparılır, ədəbi-tarixi proseslərin qarşılıqlı əlaqə prinsiplərinə xüsusi diqqət yetirilir. |
| **Kursun məqsədi** | "Dünya ədəbiyyatı-2 " fənni intibah dövrü daxil Orta əsrlər Avropa ədəbiyyatının ən yaxşı nümunələrinin tədrisi məqsədini daşıyır. Avropa ədəbiyyatının tədqiqi və tədrisi ali ədəbiyyat təhsilinin zəruri tərkib hissəsidir. Tədris olunan kursun başlıca məqsədi - tələbələrdə Avropanın orta əsrlər ədəbiyyat haqqında elmi bilikləri formalaşdırmaqdır. Tələbələrin ümümdünya tarixi-ədəbi prosesin ayrı-ayrı inkişaf mərhələləri, qanunauyğunluqları və nəzəri-təcrübi naliyyətləri ilə tanış olması kursun məqsədinə daxldir. Fənnin tədrisi zamanı Qərbi Avropa mədəniyyəti tarixində önəmli rol oynayan İntibah, Klassisizm, Maarifləndirmə dövrlərinə xüsusi diqqət yetirilir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Bu fənnin öyrənilməsi nəticəsində tələbələr İntibah (Renessans) və Orta əsrlər dövründə, əsasən, Qərbi Avropa ədəbiyyatı ilə tanış olacaq, həmin dövr Qərbi Avropa ədəbiyyatının inkişaf qanunauyğunluqlarına hərtərəfli və sistemli şəkildə bələd olacaqlar. Bu dövrlərin ədəbi kursun bələd olarkən öyrəncilər mövcud olan ədəbi cərəyanlar, eləcə də ayrı-ayrı yazıçıların həyat və yardıcılıqları ilə tanış olacaqlar ki, bu da öyrəncilərin bədii-estetik zövqlərinin yüksək və kamil şəkildə təşəkkül edib, formalaşmasına hesablanmışdır. |
| **Qaydalar (Tədris siyasəti və davranış və qiymətləndirmə meyarları)** | **Davamiyyət**<br>Davamiyyətə görə veriləcək bal zamanı tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Tələbənin davamiyyəti hər dərs yoxlanacaq, əgər tələbə dərslərin 25%-dən çoxunda iştirak etməyibsə, imtahana buraxılmayacaq. Davamiyyət balı semestr boyunca qeydiyyat aparılaraq final imtahanından əvvəl yazılacaqdır.<br><br>**Fəallıq**<br>Fəallıq balı semestr boyunca izlənilərək final imtahanından əvvəl yazılacaqdır. Fəallığa görə bal tələbənin müzakirələrdə iştirakına, mətnlərin təhlilində göstərdiyi fəallığa, semestr boyu həftəlik dərs proqramına hazırlaşmasına, əlavə dərsliklərə və ədəbiyyata göstərdiyi marağa görə veriləcəkdir. Həmçinin fəallıq balı, eyni zamanda "Ədəbiyyat səyyahları" saytı üzərindən verilə bilər. Əgər tələbə saytda dərc olunan uyğun materiallara şifahi və ya yazılı şəkildə münasbət bildirərsə, bu da onun fəallıq balına müsbət təsir göstərmiş olacaqdır.<br><br>**Tapşırıqlar, quiz, testlər, prezentasiya/ qrup müzakirəsi**<br>Semestr ərzində tələbələr keçilən mövzular əsasında əsərlərin, əsərlərdəki obrazların təhlili üzrə prezentasiyalar hazırlamalı, "Ədəbiyyat səyyahları" saytında dərc edilən dünya ədəbiyyatına aid uyğun materiallar haqqında fikirlərini yazılı bildirməklə ev tapşığını yerinə yetirməli, qrup müzakirəsində iştirak etməlidirlər. Bu zaman plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməlidirlər. Tapşırıqlarda 25%-dən çox plagiarizm halları (istinadlar istisnadır) aşkarlandıqda iş sıfırlanacaq. Tələbələrin bir-birindən köçürməsi aşkarlanarsa, iş ləğv olunacaq. Tapşırıqlar vaxtından gec verildikdə tapşırığa ayrılmış baldan 20% çıxılacaqdır.<br>Mövcud biliyin semestr ərzində yoxlanılması üçün yekun imtahan öncəsu quiz keçiriləcək. Əgər tələbənin "Ədəbiyyat səyyahları" saytında keçilən dərslərə aid mövzuda yazısı dərc olunarsa, həmin yazı quizi əvəz edə bilər. Quizdə klassik və test üsulu tətbiq oluna bilər.<br>Fərdi prezentasiyanın / qrup müzakirəsinin qiymətləndirilməsində mövzu ilə bağlı |

| | |
|---|---|
| | mövcud tədqiqatlarla tanışlıq və elmi araşdırmanın səviyyəsi, mövzunun əhatə olunma miqyası, şəkil və illüstrasiyalardan yerli-yerində istifadə edilməsi, prezentasiyadakı planlılıq və ardıcıllıq kimi meyarlar nəzərə alınacaq. Prezentasiyalar dizayn və məzmun baxımından mükəmməl olmalıdır. Tələbələr mövzuya uyğun pptx yaxud videomaterial hazırlamaqla yanaşı, mövzunu daha dərindən mənimsəmək üçün müəllimin sual-cavabında iştirak etməlidir. Prezentasiyalar və ev tapşırıqları qiymətləndirilmək üçün verilmiş e-mailə göndərilməlidir.<br>Semestr ərzində müxtəlif dərs mövzular üzrə bir prezentasiya və bir ev tapşırığı təqdim edilməlidir. Semestrin bitməsinə iki qoşa dərs saatı qalmış bütün prezentasiya və ev tapşırıqları təhvil verilməlidir.<br><br>**İmtahan haqqında**<br>1. Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur.<br>2. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>3. Aralıq və Final imtahanlarının hər ikisində suallar test və ya klassik ola bilər.<br>4. İmtahan cavablarını istər yoldaşından, istərsə də internet resursundan köçürən tələbələr həmin sualdan qiymətləndirilmirlər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix(planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| **1.** | | **İntibah dövrü və XVII-XVIII əsr Avropa ədəbiyyatı**<br>*Orta əsrlər ədəbiyyatı.* Orta əsrlər dövrü Qərb ədəbiyyatı. Feodalizm dövrü Qərb ədəbiyyatı<br><br>*İntibah dövrü ədəbiyyatı* | Ə.Xəlilov, “Dünya ədəbiyyatı”, I c., B., “Araz” n.,2011, s.167-178, s.269-310<br><br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”,2013, s.7-28 |
| **2.** | | *İtaliyada intibah.* A.Dantenin “İlahi komediya” əsəri<br>F.Petrarkanın sonetləri. C.Bokkaçionun “Dekameron” əsəri | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 29-90.<br><br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013,s.91-135. |
| **3.** | | *İngiltərədə intibah.* C.Çoser. “Kenterberi hekayələri”. V.Şekspirin yaradıcılığı. Sonetləri.<br><br>V.Şekspirin “Hamlet” və “Otello” faciəsi | Ə.Xəlilov, “Dünya ədəbiyyatı”, I c., B., “Araz” n.,2011, s.302-304.<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 136-142<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013,s.142-156 |
| **4.** | | V.Şekspir. “Kral Lir”və “Maqbet” faciəsi<br><br>*İspaniya və Portuqaliyada intibah.* Servantes. “Don Kixot” cəngavər romanına parodiya kimi. | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013,s.157-175<br>Ə.Xəlilov, “Dünya ədəbiyyatı”, I c., B., “Araz” n.2011,s364-367<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, |

| | | | |
|---|---|---|---|
| | | | 2013, s. 177-198 |
| **5.** | | *Almaniya və Niderlandda intibah.*<br>Erazm Roterdamlı. “Səfehliyin tərifi”.<br>***seminar***<br><br>Fransada İntibah. F. Rablenin “Qarqantua və Pantaqruel” əsəri | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 199-224<br>F.Rable. Qarqantua və Pantaqruel (tərc.:Ə.Cavad, B., Öndər, 2005. |
| **6.** | | ***XVII əsr Qərbi Avropa ədəbiyyatı.***<br><br>*İspan ədəbiyyatı.* Lope de Veqa. “Sevilya ulduzu”. | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”,2013,s.226-245<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”,2013,s.246-253<br>Lope de Veqa.”Seçilmiş əsərləri”, Bakı, Şərq-Qərb, 2017 |
| **7.** | | *Fransız ədəbiyyatı.* P.Kornelin “Sid” faciəsi.<br><br><br>**Aralıq imtahanı** | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., 2013, s. 255-284;<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., 2013, s. 285-291 |
| **8.** | | J.Rasinin “Fedra” əsərinin məzmunu.<br><br><br>J.B.Molyerin “Skapenin kələyi” komediyası.<br>“Tartüf,” “Don Juan”, “Xəsis”, “Mizanttrop” komediyalarının məzmunu | Ə.Xəlilov “Dünya ədəb.”, II c., B., “Bilik”, 2013, s. 292-297.<br><br>Ə.Xəlilov “Dünya ədəb., II c., B., “Bilik”, 2013, s. 298-307; “Fransız ədəb. antol." (J.B. Molyer “Skap. kələyi”), B.,2013,Şərq-Qərb,s.14-62. |
| **9.** | | *İngilis ədəbiyyatı.* Con Miltonun “İtirilmiş cənnət”, “Qaytarılmış cənnət” poemalarının məzmunu.<br><br>*XVIII əsr Qərbi Avropa ədəbiyyatı (I hissə)* | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 309-314<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 316-335 |
| **10.** | | *XVIII əsr Qərbi Avropa ədəbiyyatı (II hissə)*<br><br>*İngilis ədəbiyyatı.* C. Sviftin “Qulliverin səyahəti” romanı realist fantastika janrının nümunəsi kimi. | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”,2013, s.335-350<br><br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 352-383 |
| **11.** | | *Erkən maarifçilik dövrü ədəbiyyatı.*<br>D.Defonun “Robinzon Kruzonun həyatı və qəribə macəraları” romanı.<br>*Fransız ədəbiyyatında maarifçilik.* F. Volterin “Kandid, yaxud optimizm” əsəri | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 384-403<br>Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, 2013, s. 405-446 |
| **12.** | | D.Didronun “Ramonun qardaşı oğlu” əsəri. | Ə.Xəlilov “Dünya ədəbiyyatı”, II c., B., “Bilik”, |

| | | | |
|---|---|---|---|
| | | J.J.Russonun "Yuliya və ya Yeni Eloiza" əsərinin məzmunu.<br>**Quiz/ sınaq imtahanı** | 2013,s.447-469<br>Ə.Xəlilov "Dünya ədəbiyyatı", II c., B., "Bilik", 2013, s. 470-481 |
| **13.** | | Ş.L. Monteskyö. "Fars məktubları"nın məzmunu<br><br>Alman ədəbiyyatında maarifçilik.<br>Y.V.Höte. "Gənc Verterin iztirabları" əsəri | Ə.Xəlilov "Dünya ədəbiyyatı", II c., B., "Bilik", 2013, s. 482-492<br>Ə.Xəlilov, "Dünya ədəbiyyatı", I c., B., "Araz" n.,2011, s.377-384 |
| **14.** | | Y.V.Höte. "Faust" əsərində xeyirlə şərin mübarizəsi.<br><br>F.Şillerin "Qaçaqlar"əsəri | Ə.Xəlilov, "Dünya ədəbiyyatı", I c., B., "Araz" n.,2011, s. 384-393<br>Ə.Xəlilov, "Dünya ədəbiyyatı", I c., B., "Araz" n.,2011, s. 393-430 |
| **15.** | | F.Şillerin "Məkr və məhəbbət" əsəri.<br><br>***seminar***<br>*/Keçilənlərin təkrarı/* | Ə.Xəlilov "Dünya ədəb.", II c., B., "Bilik", 2013, s. 493-501<br>Ə.Xəlilov "Dünya ədəbiyyatı", II c., B., "Bilik", 2013, s. 501-504 |
| | | **Final imtahanı** | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.